

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 57 (20.958)

2 aprel 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə görə:

Allahverdiyeva Həbibə Rəşad qızına – **"Əməkdar rəssam"** fəxri adı;

Həbibov Yaşar Həsən oğluna

Quliyev Saleh Əşrəf oğluna – **"Əməkdar kənd təsərrüfatı işçisi"** fəxri adı;

Rzayev İbrahim Musa oğluna – **"Əməkdar bədən tərbiyəsi və idman xadimi"** fəxri adı;

Abbasov Hüseyn Vəli oğluna

İbrahimov Mətləb Süleyman oğluna

Novruzov Fərman Novruz oğluna – **"Əməkdar hakim"** fəxri adı;

Tahirova Rəna Mahmud qızına – **"Əməkdar tibb işçisi"** fəxri adı;

Cabbarov Allahverdi Məmmədəli oğluna

Əliyev İdris Hüseyn oğluna

Əsgərova Xuraman Həziratqulu qızına

Həsənov Rəhman Fərman oğluna

Hüseynova Gültəkin Cəbi qızına

Hüseynova Təranə Adil qızına

İbrahimova Səkinə İbrahim qızına

Məmmədova Elminaz Bünyad qızına

Rəhimova Səkinə Nəcəf qızına

Rzayev Sultan Rza oğluna – **"Əməkdar müəllim"** fəxri adı;

Əsgərov Müzəffər Rza oğluna – **"Əməkdar jurnalist"** fəxri adı;

Əsgərov Rəşid Şəmil oğluna – **"Əməkdar mühəndis"** fəxri adı;

Məmmədov Ələddin Kamil oğluna – **"Əməkdar hüquqşünas"** fəxri adı;

Məmmədov Telman Vəli oğluna

Novruzova Bulqeyis Sabir qızına – **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 aprel 2014-cü il*

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində" mövzusunda açıq dərs keçilib.***



Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin VII, VIII, IX sinif şagirdlərinin iştirak etdikləri açıq dərsdə məktəbin tarix müəllimi Feyruz Novruzov bildirib ki, Azərbaycanın tarixində ümummilli lider Heydər Əliyevin ayrıca rolu və yeri vardır. Azərbaycan tarixinin Heydər Əliyev dövrü təkcə sürətli inkişaf, yüksəliş anlayışları ilə səciyyələnmir. Bu daha çox mahiyyətcə yeni dövrün, yeni tarixin formalaşması anlamına uyğun gəlir. Ulu öndər Heydər Əliyev Azərbaycanın qədim və çoxəsrlik tarixinin yeni dövrünü, daha dəqiq desək, Azərbaycanın yeni tarixini yaradıb. Və heç şübhəsiz, bu dövrə, bu tarixə onun adı əbədi həkk olunub.

Azərbaycanın ən yeni tarixində Naxçıvanın yeri və rolu haqqında danışan Feyruz Novruzov şagirdlərin diqqətinə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Üçrəngli bayrağımız ilk dəfə ümummilli liderin sədrlik etdiyi Naxçıvan parlamentində qaldırılıb, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılıb. Naxçıvanda ulu öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Müstəqilliyimizin ilk illərində hakimiyyətə yiyələnən qüvvələrin səriştəsizliyi ölkəmizi parçalanmaq, dövlətçiliyimizi itirmək təhlükəsi qarşısında qoymuşdu. Hakimiyyət uğrunda çəkişmə Ermənistanla aparılan müharibəni də arxa plana keçirmişdi. Azərbaycan dövlətçiliyinə qənim kəsilən dairələrin fikrincə, xaotik proseslərin nəticəsi kimi Azərbaycan parçalanmalı və nəticə etibarilə, iri dövlətlərdən asılı vəziyyətə düşməli idi. Xarici dairələrin təsiri altına düşən "sapı özümüzdən olan baltaların" rəvac verəcəkləri vətəndaş müharibəsi xalqa böyük müsibətlər gətirməli idi. Amma onlar ən mühüm məqamı – Azərbaycan xalqının böyük inam bəslədiyi ulu öndərin ətrafında birləşmək istəyini nəzərə almamışdılar. Xalq görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlişini vəziyyətdən yeganə çıxış yolu kimi görmüş və vaxtında öz böyük oğlunu Bakıya dəvət etməklə çox düzgün bir addım atmışdır.

Qeyd olunub ki, Azərbaycanımızın ayrılmaz hissəsi olan qədim Naxçıvanın bu gün sürətli inkişaf yolunda olması ulu öndərin müəyyənləşdirdiyi strategiyaya böyük sədaqətin nəticəsidir. Bu səbəbdəndir ki, diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən nəhəng quruculuq tədbirləri bu qədim yurd yerini füsunkarlığa qovuşdurur, insanların həyat tərzi gündən-günə daha da yaxşılaşır.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

**Muxtar MƏMMƏDOV**

## "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin yeni filialı fəaliyyətə başlayıb



Aprelin 1-də Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq lisenziyası əsasında "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialı fəaliyyətə başlamışdır. Yeni yaradılmış filial vasitəsilə əhalinin, sahibkarların, torpaq mülkiyyətçilərinin maliyyə resurslarına olan tələbatlarının yüksək səviyyədə ödənilməsi üçün hərtərəfli şərait yaradılmışdır. Zəruri avadanlıqlarla təmin olunmuş bank filialında müştərilərə növbəlilik sistemi vasitəsilə bütün bank xidmətləri göstəriləcəkdir. Mühasibat-əməliyyat və kredit şöbələrinin xidmətlərindən istifadə edən müştərilər eyni zamanda burada plastik kartlar, müxtəlif pul köçürmələri, vergi və rüsumların ödənişləri və sair əməliyyatlardan yararlana biləcəklər.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov bizimlə söhbətində filialın yaradılmasının əhəmiyyətindən danışdı. Bildirdi ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2014-cü ilin yanvar ayından etibarən kənd təsərrüfatı faiz dərəcələri 15 faizədək endirilmiş, kiçikhəcmli kreditlərin verilmə prosedurları isə sadələşdirilmişdir. Şərur, Sədərək və Kəngərli rayon sahibkarlarının kiçik maliyyə resurslarına olan tələbatlarının ödənilməsində mühüm rol oynayacaq bank filialı kənd təsərrüfatının inkişafına stimul verəcəkdir. 2013-cü ildə muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən kənd təsərrüfatına verilmiş kreditlərin həcmi 29 milyon 700 min manat təşkil etmişdir. Cari ilin yanvar-fevral aylarında isə, ümumilikdə, kənd təsərrüfatına 2 milyon 338 min 850 manat həcmində kredit verilmişdir. Muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi, bu sahədə məhsul istehsalının artırılması, daxili tələbatın yerli məhsullar hesabına ödənilməsi məqsədilə verilən bu kreditlərin həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 15 min 650 manat artım olmuşdur.

Səbuhi Məmmədov onu da vurğuladı ki, kredit alan sahibkar və fərdi torpaq mülkiyyətçiləri götürdükləri kreditləri öz təyinatı üzrə düzgün istifadə etməli, kreditlərin müəyyən edilmiş müddətlərdə qaytarılması təmin olunmalıdır.

**Səbuhi HƏSƏNOV**

## AMEA Naxçıvan Bölməsində Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə əlaqədar elmi konfrans



"Azərbaycan istiqlal mücadiləsinin görkəmli xadimi" – AMEA Naxçıvan Bölməsində Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş elmi konfrans belə adlanırdı.

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd etmişdir ki, elmi konfrans Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" 22 noyabr 2013-cü il tarixli Sərəncamına əsasən keçirilir. Akademik İsmayıl Hacıyev Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqu və Milli Şuranın sədri kimi tarixi fəaliyyətindən, onun mühacirətdə belə, Azərbaycanın istiqlalı uğrunda mübarizəsindən bəhs etmişdir. Vurğulanmışdır ki, o, dünyanın 10 ölkəsində yaşamış, 2000-ə qədər siyasi-publisistik məqalənin müəllifi olmuş və bütün şüurlu fəaliyyətini Azərbaycan məfkurəsinə həsr etmişdir.

Elmi konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin "Məhəmməd Əmin Rəsulzadənin həyatı və fəaliyyəti", həmin institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun "Məhəmməd Əmin Rəsulzadənin mühacirət dövrü fəaliyyəti", bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Fərman Xəlilovun "Məhəmməd Əmin Rəsulzadənin ədəbi irsi" mövzularında elmi məruzələri dinlənilib.

**E.KƏLBİZADƏ**

## Muxtar respublikanın yaşayış məntəqələrinin 94 faizi rəqəmsal yayımla təmin edilib

***Muxtar respublikada diqqət mərkəzində saxlanılan məsələlərdən biri də keyfiyyətli televiziya yayımının təşkilidir. Naxçıvanda DVB-T (Digital Video Broadcasting-Terrestrial – Yerüstü Rəqəmli Video Yayım) standartına uyğun olaraq, 2012-ci ilin mart ayından etibarən rəqəmsal yayıma başlanılıb. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 94 faizində 12 televiziya kanalının (NTV, AzTV, İTV, Lider TV, Kanal 35, Space TV, ANS TV, ATV, Xəzər TV, ATV int (CBS), Mədəniyyət və İdman Azərbaycan) rəqəmsal formatda yayımı təmin edilib.***

Bunun üçün 7 güclü və 30 azgüclü televiziya vericisi və rəqəmli TV siqnalları fiberoptik xətlərlə verilir... 

Qeyd edək ki, rəqəmsal televiziyanın yayımının analoq televiziyadan əsas üstünlüyü onun bir tezlik kanalında 10 və daha çox TV kanallarının yüksək keyfiyyətlə yayım imkanlarının olmasıdır ki, bu da ölkənin istənilən ərazisində mərkəzdən yayımlanan TV kanallarının yüksək keyfiyyətlə qəbul olunmasına imkan yaradır. DVB-T standartlı rəqəmli televiziya yayımının digər üstünlükləri təsvir və səs siqnallarının kənar maneələrə qarşı davamlı olması, digər rabitə vasitələri tərəfindən yaradılan maneələrin minimum olması, proqramların sayının xeyli artırılması və vericilərin gücünün daha aşağı olmasıdır.

Xatırladaq ki, DVB-T standartını dəstəkləyən televizorlar rəqəmsal yayımı birbaşa qəbul edir və əlavə heç bir qurğuya ehtiyac qalmır. Ona görə muxtar respublika sakinlərinə tövsiyə olunur ki, yeni televizor alarkən onun rəqəmsal yayımı dəstəkləməsinə diqqət yetirsinlər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidməti***

## Sədərək rayonunda əmək yarmarkası təşkil olunub

***"Muxtar respublikada səmərəli işgüzarlıq mühiti formalaşdırılıb, investisiya fəallığı daha da artırılıb, insan kapitalının yüksək inkişaf səviyyəsi təmin edilib". Bu fikirlər dünən Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində keçirilən bu ilin ilk əmək yarmarkasında səslətdirilib.***

Tədbiri giriş sözü ilə Sədərək Rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov açıb. O qeyd edib ki, Sədərək rayonu sakinlərinin məşğulluğunun gücləndirilməsi, işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılması və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində əmək yarmarkalarının təşkili mühüm əhəmiyyətə malikdir. Sədərək Rayon Məşğulluq Mərkəzi tərəfindən işaxtaran vətəndaşların işə düzəlmək üçün mövcud imkanlardan səmərəli istifadə etməklə öz peşə və ixtisaslarına uyğun iş axtarmalarına kömək göstərmək məqsədilə təşkil olunan belə fəal məşğulluq tədbirlərinin davamlı surətdə keçirilməsi diqqət mərkəzindədir.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Bəxtiyar Mahmudov rayonda əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərdən danışıb.

İşaxtaran vətəndaş İntiqam Zamanov tədbirin təşkilatçılarına minnətdarlıq edib.

9 təşkilatdan 112 boş iş yerinin çıxarıldığı yarmarkada 20 nəfərə işə göndəriş verilib.

**S.HÜSEYNOV**



# Məqsəd əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaqdır

**Son 18 ildə muxtar respublikada demoqrafik vəziyyətin nizamlanması, həmçinin əhalinin məskunlaşması və təsərrüfat sahələrinin inkişaf etdirilməsi, şəhərlərin, qəsəbələrin, kəndlərin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Doğma diyarımızın, eləcə də paytaxt Naxçıvan şəhərinin sosial-demoqrafik inkişafı, əhalinin mənzil-məişət şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması dediklərimizə sübutdur. Muxtar respublikada mənzil-tikinti sektoru üzrə uzunmüddətli vahid dövlət siyasətinin formalaşdırılması nəticəsində qoca Şərqin qapısı sayılan Naxçıvanda mənzil tikinti sektoru günbəgün genişlənir və imkanlarını artırır.**





Əgər 18 il bundan əvvəl hər hansı bir tikinti təşkilatı ildə cəmi bir obyektdə inşaat işləri aparmaq imkanına malik idisə, bu gün dövlət qayğısından bəhrələnən və muxtar respublikanın çiçəklənməsində böyük rolu olan tikinti şirkətləri onlarla yaşayış binası tikmək imkanına malikdirlər. Ötən müddət ərzində yüzlərlə bina əsaslı şəkildə yenidən qurulub, mənzillərin sahəsi genişləndirilib, yaşayış binalarının əksəriyyəti möhkəmləndirilib və əlavə mərtəbələr artırılıb, lazımi kommunal-məişət şəraiti yaradılıb. Yaradılan şərait yaşayış binaları sakinlərinin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədi daşıyır.

Qeyd edək ki, muxtar respublikada yaşayış standartlarının davamlı yüksəlişi, mənzil-kommunal sektorunda genişmiqyaslı yenidənqurma tədbirləri, infrastrukturun tamamilə yenilənməsi, qısacası, rahat yaşayış üçün əsas kriteriyaların tam təmin olunması muxtar respublikaya daimi yaşayış üçün gələnlərin də sayını artırıb. Son 10 ildə 3900-ə yaxın ailə daimi yaşayış üçün Naxçıvana gəlib. Bu tendensiyanın davam etdiyini və muxtar respublika üzrə il ərzində orta hesabla qurulan 4 mindən çox gənc ailələri də nəzərə alsaq, mənzil bazarında məcmu tələbin yaxın illərdə daha da gücləncəyini proqnozlaşdırmaq mümkündür. Qeyd olunan ailələrin bir qismi fərdi ev inşa etməyə, digər böyük bir hissəsi isə hazır mənzil almağa üstünlük verir. İl ərzində Naxçıvan Muxtar Respublikası üzrə əhalinin şəxsi vəsaiti hesabına tikilən, orta hesabla, 300 min kvadratmetr yaşayış sahəsinin də məhz böyük bir hissəsi bu tip ailələrin payına düşür. Daimi yaşayış üçün Naxçıvanı seçənlərin əsas səbəb kimi göstərdiyi amillər sırasında idarəetmədə insan amilinin üstünlüyü, elektrik, qaz və su təminatının yüksək səviyyədə olması, mənzillərin pulsuz təmir edilməsi, mənzillərə pulsuz qaz sobasının verilməsi, istilik xətləri və radiatorların quraşdırılması, məhəllədaxili abadlıq və təmizlik, evlərin və avtomobillərin mühafizəsi üçün əlavə xərc çəkilməməsi də var. Bütün bunlar onu göstərir ki, daimi yaşayış üçün Naxçıvanın seçilməsi uğurlu islahatların məntiqi nəticəsidir və hazırda daha da intensivləşməkdə olan bu müsbət meyilli miqrasiya prosesi mənzil bazarına ciddi təsir göstərməkdədir.

Bu gün muxtar respublikada həyata keçirilən yenidənqurma və abadlıq işləri Naxçıvan şəhərinin timsalında daha aydın görünür. Son illər şəhərin küçə və meydanları, park və xiyabanları yenidən qurulub, yeni sosial obyektlər, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilib.





Bu istiqamətdə həyata keçirilən tədbirlər sakinlər tərəfindən böyük rəğbət hissi ilə qarşılanır. Sakinlər Naxçıvan şəhərinin günü-gündən çiçəklənməsinin böyük iftixar hissi doğurduğunu, aparılan quruculuq və abadlıq işlərindən, yaradılan yüksək şəraitdən hər bir şəhər sakininə pay düşdüyünü qeyd edirlər. Onlar yaşayış binalarının ən müasir tələblər səviyyəsində təmir olunmasını dövlətimizin insanların məişət şəraitinin yaxşılaşdırılmasına göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi dəyərləndirir, bu diqqət və qayğıya görə minnətdarlıqlarını bildirirlər.

Muxtar respublikada gənclərin mənzilə olan tələbatının ödənilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin – "Gənclər şəhərciyi"nin tikintisinə start verilib. "Gənclər şəhərciyi" yaşayış kompleksinin təməlatma mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Gənclərin mənzil təminatının ödənilməsi məqsədilə tikilən yeni şəhərcik mühüm əhəmiyyət daşıyır. Çünki gənclərin mənzillərlə təmin olunması qarşıda duran başlıca vəzifələrdəndir. "Gənclər şəhərciyi" muxtar respublikada bu məqsədlə inşa olunan ilk yaşayış kompleksidir. Burada 302-si ikiotaqlı və 204-ü üçotaqlı olmaqla, ümumilikdə, 506 mənzil, alış-veriş mərkəzləri, idman qurğuları və digər xidmət sahələri istifadəyə veriləcək. Bu da sakinlərin rahatlığının təmin olunmasına və onların gündəlik tələbatlarının ödənilməsinə şərait yaradacaqdır".***

Dövlət dəstəyi hesabına tikilən yaşayış kompleksinin hər cür kommunal-məişət şəraiti olacaq. Tikinti işləri 2 il müddətində başa çatdırılacaq və mənzillərin satışı ipoteka yolu ilə həyata keçiriləcək. Bu da gənclərin tez bir zamanda mənzillə təmin olunmalarına imkan verəcək. Hazırda ərazidə ikisi 9 mərtəbəli, ikisi 11 mərtəbəli və biri 13 mərtəbəli olmaqla, 5 bina inşa olunur. Binalardakı ikiotaqlı mənzillərin sahəsi 60-77 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi isə 104-142 kvadratmetr nəzərdə tutulub. Yaşayış binalarının hər birində sərnişin və yük lifti quraşdırılacaq, 323 yerlik yeraltı avtomobil dayanacağı yaradılacaq.

Şəhərciyin kommunal-məişət şəraiti və sosial infrastrukturu da ən müasir tələblər səviyyəsində qurulacaq. Həyətyanı sahədə müasir işıqlandırma və təhlükəsizliyi təmin etmək üçün videokamera sistemləri quraşdırılacaq, uşaq bağçası, basketbol və voleybol, eləcə də açıq şahmat meydançaları inşa olunacaq. Həmçinin kompleksi "Cahan" Ticarət Mərkəzi ilə birləşdirən yeraltı keçid istifadəyə veriləcək.

Qeyd edək ki, yeni yaşayış binalarının tikintisi bunlarla məhdudlaşmır. Belə ki, Naxçıvan şəhərinin Atatürk küçəsində inşası davam etdirilən 9 nömrəli yaşayış binasının tikintisi sürətlə davam etdirilir. Zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarət olacaq binada tikinti işlərinə bu ilin fevral ayından başlanılıb. Binada üç və dördotaqlı 54 mənzil olacaq. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən həyata keçirilən tikinti işlərində, əsasən, yerli materiallardan istifadə olunur. Tikintidə təhlükəsizlik qaydalarına ciddi əməl edilir. İnşaatçılar işin keyfiyyətlə və vaxtında başa çatdırılması üçün əllərindən gələni əsirgəmirlər.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektində zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarət olan yaşayış binası da ev almaq arzusunda olan ailələr üçün geniş imkanlar yaradır. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikintisinə ötən ilin aprel ayından başlanılmış 36 mənzilli binanın zirzəmi hissəsində avtomobil parkı, birinci mərtəbəsində isə ticarət obyektləri yerləşəcək. Dördotaqlı mənzillərdən ibarət bu yaşayış binası mənzillərin genişliyinə və rahatlığına görə seçilən ünvanlardan olacaq.

Şəhərin Əziz Əliyev küçəsində isə 3 yeni yaşayış binasının ucaldılması əraziyə yeni görkəm bəxş edib. Obyektlərin inşasını həyata keçirən Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsindən aldığımız məlumata görə, inşaat işlərinin davam etdirildiyi yaşayış binalarından ikisi 30, biri isə 20 mənzillidir. Ümumilikdə, 80 mənzildən 75-i ikiotaqlı, 5-i isə üçotaqlıdır. Üçotaqlı mənzillər 65 kvadratmetr, ikiotaqlı mənzillər isə 54 kvadratmetr sahəni əhatə edir. Məlumat üçün bildirək ki, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, şəhərimizin Kazım Talıblı küçəsində və Atabəylər məhəlləsində də yeni yaşayış binalarının inşası üçün hazırlıqlar görülüb.

**Səbuhi HÜSEYNOV**

# "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən yerli məhsullara tələbat artıb

*"Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti 2006-cı ildə yaradılmışdır. Özəl bölməyə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnmiş, Sahibkarlığa Kömək Fondundan 1 milyon 80 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. İllik istehsal gücü 300 min dekalitr olan zavodda Amerika Birləşmiş Ştatları, İtaliya, Çexiya və Macarıstandan alınmış avadanlıqlar quraşdırılmış, müəssisə 2008-ci ilin oktyabr ayında istifadəyə verilmişdir. Eyni zamanda 2008-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə 50 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir ki, bu vəsaitlə müəssisədə yeni istehsal sahəsi – istehsal gücü gündə 1000 kiloqram olan balığın duzlanması və qurudulması sexi tikilmişdir.*

İstehsal edilən pivənin vaxtında yerlərə çatdırılması və keyfiyyətlə saxlanılması üçün müəssisəyə "Hyundai" markalı soyuducu kamerası olan avtomobil alınmışdır. Bundan başqa, xammalın saxlanılması üçün 288 kvadratmetrlik anbar inşa edilmiş, 50 min manat dəyərində Çexiya istehsalı olan pasterizator avadanlığı alınıb quraşdırılmışdır. Bu da istehsal edilən pivəni 6 ayadək saxlamağa imkan verir.

Müəssisədə daha bir istehsal sahəsinin yaradılması – sərinləşdirici içkilərdən kvas və limonad istehsalı üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin avqust ayında 300 min manat güzəştli kredit ayrılmış, müasir tələblərə cavab verən istehsal sahələri inşa olunmuşdur. Burada gündəlik istehsal gücü 1 ton olan müasir texnoloji avadanlıqlar quraşdırılmış, 2012-ci ilin mart ayından kvas istehsalına başlanılmışdır. Kvas istehsalı üçün lazım olan xammal Rusiya Federasiyasından alınır, maqneziumsuz su isə Kəngərli rayonunun Çalxanqala kəndindəki bulaqlardan xüsusi maşınlarla daşınır. Xammal qaynadılmış su ilə xüsusi avadanlıqlarda qarışdırılır, ayrı-ayrı çənlərdə 3 gün müəyyən olunmuş temperaturda saxlandıqdan sonra istehsala buraxılır. Ötən ildə də bu istiqamətdə işlər uğurla davam etdirilmiş, Gürcüstan Respublikasından limonad istehsalı sahəsində qabaqcıl təcrübəyə malik mütəxəssislər cəlb olunmaqla mart ayında 4 çeşiddə limonad istehsalına başlanılmışdır. Yeni istehsal sahələrinin yaradılması ilə müəssisədə 10, xidmət sahələrində isə 50 yeni iş yeri açılmışdır. Ümumilikdə, müəssisədə 35, xidmət sahələrində isə 200 nəfərdən çox işçi çalışır.

10 çeşiddə pivə istehsal etmək imkanı olan müəssisədə hazırda açıq və tünd olmaqla, 2 çeşiddə pivə istehsal olunur. İstehsal edilən pivə 0,33, 0,5 litrlik şüşə, 1 litrlik plastmas və 25, 50 litrlik çəlləklərdə, kvas 0,5, 1 litrlik plastmas, 25, 50 litrlik çəlləklərdə, limonad isə 0,5, 1 litrlik plastmas butulkalarda "Prestij" əmtəə nişanı ilə satışa çıxarılır.

İsti yay aylarında əhalinin sərinləşdirici içkilərə olan tələbatı nəzərə alınaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində kvas və limonadın satışı üçün soyuducularla təmin olunmuş xüsusi şkaflardan ibarət səyyar satış məntəqələri yaradılacaqdır.

Daxili bazarı keyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv ötən il 2012-ci illə müqayisədə 6 min dekalitr çox – 47,1 min dekalitr pivə istehsal etmişdir. Eyni zamanda istehsal edilən məhsulun satışında da irəliləyişə nail olunmuş, 2012-ci illə müqayisədə 3,6 min dekalitr çox – 45 min dekalitr pivə satılmışdır. Müəssisədə istehsal olunan kvas və limonadın tanıdılması istiqamətində də işlər davam etdirilmiş, ötən il 0,6 min dekalitr kvas, 4,1 min dekalitr limonad istehsal edilmişdir.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında da satışa çıxarılması planlaşdırılır.

Muxtar respublikamızın sosial-iqtisadi inkişafında və daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatında fərqlənən "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti "Biznesdə uğur-2013" müsabiqəsinin "İlin şirkəti" nominasiyası üzrə qalibi olmuşdur.

**Kərəm HƏSƏNOV**

# Muxtariyyət yaşıdı Naxçıvan səhiyyəsi

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncamda qeyd olunduğu kimi, Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyarda Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bu il Naxçıvan səhiyyəsinin 90 illiyi muxtariyyətin tarixi ilə üst-üstə düşdüyündən hər bir səhiyyə işçisi üçün ikiqat bayramdır. Bununla yanaşı, səhiyyənin inkişaf tarixi həm də Naxçıvan tarixinin vacib bir hissəsidir. "Muxtariyyət ili"ndə bu tarixi öyrənmək bütün ziyalılar üçün, həm də tibb ictimaiyyəti üçün müəyyən əhəmiyyət kəsb edir.***

Səhiyyənin tarixi ilk bəşər övladının tarixi qədər qədimdir. İlk bəşər övladı ən azı özü-özünün həkimi olub soyuqdəymədən, günvurmadan qorunmaqla neçə-neçə xəstəliyin qarşısını alıb, qanı axmasın deyə özünün və başqalarının yaralarını sarıyıb, ağrıyan əzasına məlhəm qoyub, aclıq, susuzluq kimi təbii ehtiyaclarını dolğun şəkildə ödəməyə çalışıb. Beləcə, hələ əkinçilikdən, maldarlıqdan, inşaatdan, bütün peşə və sənətlərdən öncə səhiyyə təşəkkül tapıb, əsrlər boyu formalaşıb, inkişaf edib. Loğmanlar, təbiblər, həkimlər dünyanın əşrəfi sayılan insanın ən qiymətli neməti olan cansağlığının keşiyində duran ali bir peşə sahibinə çevriliblər. Bu gün səhiyyə birbaşa genefondun keşiyində duran və insanlara xidmət göstərən bir fəaliyyət növüdür. Təbabətin inkişafı ömürün xeyli uzanmasına, insan həyatının keyfiyyət göstəricilərinin yüksəlməsinə səbəb olmuşdur. Həkimin gördüyü iş çətin, məsuliyyətli, eyni zamanda şərəfli işdir. Ümummilli lider Heydər Əliyev həkimlik peşəsini yüksək qiymətləndirərək deyirdi: ***"Həkimlik sənəti dövri-qədimdən şərəfli və hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlərdən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, həkimlik kimi hər bir insana lazım olsun. Mən həkimi, səhiyyəni çox sevirəm. Deyə bilərəm ki, mən sizlərin dostuyam. Siz isə mənim bir nömrəli dostumsunuz... Yer kürəsində insanların hərəsi öz fəaliyyətini bir sahədə göstərir. Hər bir sahə lazımdır. Amma özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır".***

Ömürlərini Vətən, xalq qarşısında böyük xidmətlərə sərf edən, nurlu əməlləri, müqəddəs amalları, xeyirxahlıqları ilə insanların qəlbində yurd salan həkimlərimiz şərəfli işi, nəsillərə örnək olan əməlləri ilə gənc nəslə nümunədir. Əcəmi yurdu zaman-zaman həm də təbiblər yurdu kimi tanınıb. Arxeoloji qazıntılar zamanı tapılan, bu gün muzeylərin ekspozisiyasını bəzəyən eksponatlar, şifahi xalq ədəbiyyatı qaynaqları əcdadlarımızın hələ bizim eradan əvvəl humoral və ya pnevmatik təbabətin nəzəri əsaslarına bələd olduqlarını sübut edir. Məsələn, şəkər xəstəliyinin əlamətləri Eneolit dövrünün daş yazılarında belə ifadə olunurdu: "O qədər susuzdu ki, bütün Nil çayını içə bilərdi". Antik yunan və Roma ədəbiyyatında da tibbin ilk insanla birlikdə yarandığı bildirilsə də, antik yunan mifologiyasında bu sənət Eskulapla bağlanır. Eskulap Apollonun oğlu, təbib allahıdır. Homerin "İliada" əsərində Eskulap allah deyil, fessaliyalı bir insan, döyüşçü həkimlər Maxaon ilə Podalirinin atasıdır. Beynəlxalq tibb aləmində "kasaya zəhər tökən ilan emblemi" də sağlamlıq tanrısı Eskulapın şərəfinə tibbin rəmzi kimi qəbul edilib.Yunan mifologiyasında Eskulapın şəfa gücünü ilandan aldığı bildirilir və ilanlı əsası ilə Eskulap tibbin rəmzi sayılır. Xidmətləri ilə Hippokrat da tibbin atası sayılır. E.ə.490-450-ci illərdə yaşayan Hippokratın tibb elminin inkişafındakı fəlsəfəsindən dünya tibbində bu gün də istifadə olunur. Bu səbəblə də bir çox ölkədə həkimlər məzun olarkən "Hippokrat andı" ilə məslək andı içirlər. Şərqdə, xüsusən Azərbaycanda isə o zamanlar "tərcüməçi" mənasında işlədilən "dilmanc" və ya "savadlı" mənasında işlədilən "mirzə" sözləri kimi "şəfaverici" mənasında işlədilən "təbib" sözü də böyük ehtiramla səslənirdi.

Tarixi mənbələrdə, eləcə də türk dünyasının möhtəşəm "Dədə Qorqud" dastanında bu qədim Oğuz yurdu ilə bağlı coğrafi məkanlar özlərinin nadir dərman bitkiləri, şəfa qaynaqları ilə zəngin bir yer kimi təsvir edilib. Əcəmi Naxçıvaninin müasiri Əkmələddin Naxçıvani həkim, "təbiblərin sultanı", "müdriklərin ağası", "dünya həkimlərinin rəisi" kimi ad qazanmış, Qiyasəddin Keyxosrovun hakimiyyəti dövründə (1264-1283) Konya sultan sarayında baş həkim işləmişdir.

Bu sətirlərin müəllifi 2000-ci ildə bir qrup naxçıvanlı ziyalı ilə Tehranda qonaq olarkən Dehli Universitetinin müəllimi bizə yaxınlaşıb Əkmələddin Naxçıvaninin həmvətənləri ilə görüşündən məmnunluğunu ifadə etdi, onun yazdığı kitabın Dehli Universitetinin Tibb fakültəsində indi də tədris edildiyini bildirdi. Həmin görüşdən sonra AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin Əkmələddin Naxçıvani barədə apardığı axtarışların nəticəsi olaraq, "Şərq qapısı"qəzetində geniş bir məqaləsi dərc edildi.

XVII əsrdə yaşamış İbrahim ibn Zeynalabdin (bəzi mənbələrdə Zeynəddin) Naxçıvani tibb elminin sirlərinə yiyələndikdən sonra Dəməşqin baş təbibi olmuş, "təbiblərin rəisi" kimi şöhrət qazanmışdır (Naxçıvan ensiklopediyası, 2-ci cild, səh.178).

Naxçıvan əsrlər boyu xarici hücumların, ara müharibələrinin, feodal çəkişmələrinin dağıntısına məruz qalmış, müxtəlif xarici işğalçılar arasında mübarizə meydanına çevrilmişdir. Qanlı müharibələr, döyüşlər ordu quruculuğunda hərbi tibbi xidmətin təşkilini zəruri etmiş, yaralılar üzərində cərrahi müdaxilələr aparılmışdır.

1826-28-ci illərə qədər əhali tibbi yardım almaq üçün ara həkimlərinə, mollalara, seyidlərə, dərvişlərə, falçılara müraciət edirdi. Şərur qəzasının həkimi H.Səfiyev qəzada ilk xəstəxana açılana qədər olan dövrü təsvir edərək yazır: "…O vaxta qədər (1889-cu ilədək, yəni ilk xəstəxana açılana qədər) əhali ancaq ara həkimlərinin köməyi ilə keçinirdi…" İnsanın anatomiyası, fiziologiyası və xəstəliklərin mahiyyəti barəsində heç bir təsəvvürü olmayan bu cür başəbələ "həkimlərin" günahı üzündən hər il yüzlərlə adam, o cümlədən körpə uşaq onların qurbanı olurdu.

Naxçıvan ərazisində tibb işi XIX əsrin ortalarında təşkil edilmişdir. O zaman çar Rusiyasının mövcud qanununa əsasən, Qafqaz ölkəsinin inzibati idarəsi tərəfindən 1847-ci ildə Cənubi Qafqaz üçün tibb personalının ştatı haqqında əsasnamə imzalanmışdır. Buna əsasən, hər qəzada bir qəza həkimi, iki feldşer və bir mama vəzifəsinin olması nəzərdə tutulurdu.

Rəsmi məlumatlardan aydın olur ki, 1852-53-cü illərdə Naxçıvan və Ordubad qəzalarında əhaliyə tibbi yardım göstərilmişdir. İrəvan quberniyası üçün 13 noyabr 1874-cü ildə təsdiq edilmiş ştata əsasən, Naxçıvan qəzasına bir qəza həkimi, iki feldşer və bir mama ştatı, Şərur qəzasına bir qəza həkimi, iki feldşer verilmişdir. Qəza həkimlərinin vəzifəsi, əsasən, məhkəmə təbabəti və tibbi-polis fəaliyyəti ilə məşğul olmaqdan ibarət idi (məhkəmə-tibb müayinəsi, meyityarma və sair). Bundan başqa, qəza həkiminin üzərinə onun təbeliyində olan feldşerlərə və mamalara nəzarət, əhaliyə həkim köməyi göstərmək vəzifəsi də düşürdü.

İqtisadi gerilik, məişət və əmək şəraitinin aşağı səviyyədə, yaşayış yerlərinin antisanitar vəziyyətdə olması, tibb işinin olduqca zəif inkişafı – bunlar hamısı yoluxucu xəstəliklərin – təbii çiçək xəstəliyinin, vəbanın, yatalağın, malyariyanın, dizenteriyanın, traxomanın, prokazanın, uşaq yoluxucu xəstəliklərinin baş verməsinə və yayılmasına səbəb olurdu. 1892-ci ilin yay ayında baş vermiş vəba epidemiyası vaxtı Naxçıvan qəzasında 2583 vəbalı xəstə qeydə alınmış, onlardan 1227 nəfəri (47,5 faizi) ölmüşdür. Naxçıvan şəhərində isə 250 vəbalı xəstədən 157-si (62,8 faizi) ölmüşdür.

1904-cü ildə Naxçıvan və Şərur qəzalarında vəba epidemiyasının baş verməsinin qarşısını almaq və epidemiya əleyhinə tədbirləri gücləndirmək məqsədilə 1904-cü ildə Şərur qəzasının Baş Noraşen kəndində (iyul), Ordubad şəhərində (avqust) və Naxçıvan şəhərində (sentyabr) həkim-sanitar məntəqələri təşkil edilir. Onlara sanitar tədbirlərin həyata keçirilməsinə və xidmət dairəsində sanitar vəziyyətinə nəzarət etmək həvalə olunmuşdur. Xəstəlik hadisəsi baş verən vaxt ona qarşı bilavasitə mübarizəyə qoşulmaq nəzərdə tutulmuşdur.

1904-cü ilin avqust ayında Naxçıvan şəhərində vəbalı xəstələr üçün 10 çarpayılıq, sentyabr ayında Şərur qəzasının Baş Noraşen kəndində isə 3 çarpayılıq xəstəxana açılır.

Təkcə 1904-cü ildə vəba epidemiyası zamanı Naxçıvan qəzasında vəbaya tutulmuş 837 xəstədən 628 nəfəri (yəni xəstələnənlərin 74 faizi), Şərur qəzasında isə 845 vəbalı xəstədən 660 nəfəri (yəni xəstələnənlərin 78,1 faizi) ölmüşdü (bax: "İrəvan quberniyasının 1906-cı ilə aid yaddaş kitabı", üçüncü hissə. İrəvan, 1905, səh.102).

"Qafqaz haqqında məlumatlar məcmuəsi" adlı əsərdə Naxçıvanda o zamanlar bir sıra xəstəliklərlə yanaşı, qanlı ishalın, qızılcanın, keçəlliyin, müxtəlif göz xəstəliklərinin hökm sürdüyü göstərilir. Habelə Naxçıvan və Şərur qəzalarında qarın yatalağının, qanlı ishalın, vərəmin olmasını, 1908-1909-cu illərdə Culfada və Yaycı kəndində çiçək və Nəsirvaz kəndində (Ordubad rayonu) skarlatina epidemiyasının baş verməsini (60 uşaqdan 50-si ölmüşdür) təsdiq edən sənədlər də vardır.

Xalq arasında "qızdırma" adlanan malyariya keçmişdə hər il yüzlərlə adamı, xüsusən uşaq və hamilə qadınları məhv edirdi. Əhali arasında malyariya Naxçıvan qəzasına nisbətən Şərur qəzasında daha geniş yayılmışdı. Bu haqda "Böyük Sovet Ensiklopediyası"nda Naxçıvan MSSR-də səhiyyə işlərinin keçmişdəki zəif inkişafından, əhali arasında xəstəliklərin yayılmasından bəhs edilərək göstərilir ki, əhali arasında yatalaq, traxoma, malyariya (Arazətrafı zolaqda əhalinin 70-80 faizi, Şərurda isə az qala 100 faizə qədəri) xəstəlikləri geniş yayılmışdı. Məsələn, Naxçıvan qəzasında 1906-cı ildə 4621 nəfər, 1907-ci ildə 3749 nəfər, 1908-ci ildə 893 nəfər, 1909-cu ildə 6575 nəfər və 1910-cu ildə 5476 nəfər malyariyalı xəstə qeydə alınmışdı.

Beləliklə, öz-özlüyündə aydın olur ki, muxtariyyətdən qabaqkı Naxçıvanda əhalinin təbii artımının son dərəcə azalması, ölümün, xüsusən uşaq ölümünün çoxalmasına səbəb xəstəliklərin geniş surətdə yayılması, yaşayış şəraitinin aşağı səviyyədə olması idi.

1917-20-ci illərdə tibbi xidmət daha da pisləşir, xəstəliklər günügündən artır. 1917-ci ilə qədər Naxçıvanda işləyən tibb işçiləri ağır siyasi vəziyyətlə əlaqədar 1-2 nəfərdən başqa, hamısı qəzanı tərk edir. Sayca onsuz da az olan tibb şəbəkəsi dağılır. Sanitar vəziyyət son dərəcə pisləşir, vəba, malyariya, vərəm, traxoma və başqa yoluxucu xəstəliklər əhalinin get-gedə yoxsullaşmasının nəticəsində artır.

Qeyd etmək lazımdır ki, muxtariyyətin ilk illərində səhiyyə işini yenidən bərpa etmək, əhaliyə tibbi xidməti təşkil etmək o qədər də tez başa gəlmədi. Bir tərəfdən büdcənin zəif olması, mərkəzi səhiyyə orqanları, xüsusən Azərbaycan Səhiyyə Komissarlığı ilə əlaqənin tam bərpa edilməməsi, əvvəllər sayca cüzi də olsa, müalicə müəssisələrinin dağıdılması, olub-qalan tibb işçilərinin hərcmərclik nəticəsində 1918-1920-ci illərdə ölkəni tərk etmələri, xəstəliklərin, xüsusən yoluxucu xəstəliklərin həddindən artıq artması – bunlar hamısı yenicə təşkil edilmiş səhiyyə şöbəsinin fəaliyyətinə ciddi manelər, çətinliklər yaradırdı. Bunlara baxmayaraq, səhiyyə işinin günü-gündən yaxşılaşdırılması sahəsində gərgin iş görülürdü.

***Mövzuya yekun vurarkən bu nəticəyə gəlmək olur ki, muxtar respublikamızda səhiyyənin tarixi qədim dövrlərdən başlasa da, onun dövlət səviyyəsində təşkilatlanması ötən əsrin iyirminci illərinə – muxtariyyətin qazanıldığı dövrə təsadüf edir. Naxçıvan İnqilab Komitəsinin 1920-ci il 10 oktyabr tarixli qərarı ilə Naxçıvanda ilk səhiyyə şöbəsi, 1921-ci il dekabrın 24-dən isə Azərbaycan Xalq Səhiyyə Komissarlığının Naxçıvan Diyar Əlahiddə Səhiyyə İdarəsi fəaliyyət göstərmişdir. 1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmış, bununla da, səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulmuşdur. Bu dövrdən etibarən Naxçıvan səhiyyəsi iyirminci əsrin elmi-texniki tərəqqisindən bəhrələnərək əhalinin sağlamlığının əsl mühafizəçisinə çevrilmişdir.***

**Hüseyn ƏSGƏROV**

## Əhalinin icbari dispanserizasiyası davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il fevralın 17-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə tapşırığı ilə muxtar respublikanın bütün səhiyyə müəssisələri və onların tibbi heyəti xüsusi iş rejiminə keçib. Milli genefondumuzun sağlamlığında mühüm rol oynayacaq bu aksiyadan heç kimin kənarda qalmaması üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən tədbirlər planı hazırlanaraq tibb müəssisələrinə göndərilib və şifahi tapşırıqlar verilib. Dispanserizasiya tədbirlərinin effektivliyinə nail olmaq üçün kütləvi informasiya vasitələrində çıxışlar edilib, rayon və şəhər tibb müəssisələrində maarifləndirici elmi-praktik seminarlar keçirilib. Fevralın 17-dən başlanan kütləvi profilaktik müayinələrdə 7 rayon mərkəzi xəstəxanası, 3 kənd sahə xəstəxanası, 90 həkim ambulatoriyası və 105 feldşer-mama məntəqəsi iştirak edir.

Naxçıvan şəhərində isə 1 poliklinika, 4 ixtisaslaşdırılmış dispanser (Endokrinoloji, Dəri-Zöhrəvi, Psixi Xəstəliklər və Ağciyər Xəstəlikləri dispanserləri), 4 mərkəz (Onkoloji, Kardioloji, Stomatoloji və Doğum mərkəzləri), 2 xəstəxana (Naxçıvan Muxtar Respublikası Göz və Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq xəstəxanaları) kollektivləri tərəfindən əhalinin kütləvi müayinəsi tədbirləri aparılır.

Aprel ayının 1-dək qeyd olunan müəssisələr tərəfindən 193 min 248 vətəndaş tibbi müayinədən keçirilib ki, onlardan 16 min 336 nəfər Naxçıvan şəhərinin, 64 min 768 nəfər Şərur, 35 min 47 nəfər Babək, 30 min 473 nəfər isə Ordubad rayonlarının payına düşür. Aşkar olunan ilkin, eləcə də qeydiyyatda olan xroniki xəstələr əlavə müayinələrə cəlb edilirlər.

Dünən Şahbuz Rayon Mərkəzi Xəstəxanasında keçirilən profilaktik müayinələr kütləviliyi ilə səciyyələnib. Müasir standartlar səviyyəsində tikilib istifadəyə verilmiş və ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş bu xəstəxana rayon əhalisinə yüksək səhiyyə xidməti göstərməkdədir. Bu humanist aksiyanın yüksək səviyyədə reallaşdırılması üçün xəstəxanada hər gün 30-50 pasiyentin müayinəsi həyata keçirilir. Kompleks müayinə aparıldıqdan sonra hər hansı vətəndaşda xəstəlik aşkar olunursa, o, dərhal qeydiyyata alınır və müvafiq müalicəyə cəlb edilir. Bu il istifadəyə verilən Sələsüz kənd həkim ambulatoriyasında da yaradılan şərait burada ilkin tibbi xidmətin lazımi səviyyədə aparılmasına imkan verir. Yeni tibbi avadanlıqlar quraşdırılan ambulatoriyada 9 tibb işçisi sakinlərə səhiyyə xidməti göstərir. Ambulatoriyada müayinəyə gələn kənd sakini Sadıq Səfərov bildirdi ki, kənddəki səhiyyə müəssisəsinin müasir səviyyədə fəaliyyət göstərməsi əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır. İndi daha hər hansı xəstəlik üçün rayon mərkəzinə, yaxud Naxçıvan şəhərinə getməyə ehtiyac qalmayıb. Bütün problemlərimiz yerindəcə həll olunur, lazım gəldikdə xəstələr göndərişlə müalicəyə göndərilirlər. Hazırda isə kütləvi profilaktik tibbi müayinələr bütün kənd əhalisini əhatə edir. Əhalinin kütləvi şəkildə müayinəsi ilə bağlı bu aksiyanın təşkil olunması haqqında bilavasitə Prezidentin tapşırıq verməsi bir daha sübut edir ki, dövlət başçısı hər bir Azərbaycan vətəndaşının yanındadır və onu firavan, sağlam görmək istəyir.

Qeyd edilməlidir ki, fevralın 17-dən indiyədək rayon üzrə 11 min 600 nəfər profilaktik tibbi müayinələrdən keçib.

Muxtar respublikanın digər səhiyyə müəssisələrində də əhalinin kütləvi müayinələri uğurla davam etdirilir. Əhalinin sağlamlığının etibarlı şəkildə qorunması, xəstəliklərin erkən aşkara çıxarılması və insanların vaxtında müalicəyə cəlb olunması məqsədi daşıyan icbari dispanserizasiya mayın 1-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Bizi Kəlbəcərə qaytaracaq zəfər üçün...



***1993-cü il aprel ayının 2-də Azərbaycanın ərazicə ən böyük rayonlarından biri olan Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində 130 yaşayış məntəqəsi, dünya şöhrətli "İstisu" sanatoriyası, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edilib. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, yüzlərlə maşın, texnika, avadanlıq talan olunub. 1993-cü ilin qiymətləri ilə Kəlbəcərə azı 760 milyon ABŞ dolları dəyərində ziyan dəyib. Biz isə mənəvi ziyanlardan və gələcək ZƏFƏRdən bəhs edəcəyik...***

"Təbii ki, Kəlbəcərin işğalı bizim hakimiyyətin ən böyük məğlubiyyətidir. Bunun məsuliyyətini biz həmişə daşımışıq və daşıyacağıq da". – Bu, 1993-cü ilin aprelində ölkənin ən yüksək postlarından birini tutan şəxsin gecikmiş etirafı idi. Lakin tarixin ağır ironiyası o məqamda özünü göstərdi ki, Kəlbəcərin işğalından 7 il sonra birbaşa efirdə bu etirafı edən adam bir müddət sonra Azərbaycanın dövlətçiliyinin qarantına çevrilmiş şəxsi, onun ideya məsləkdaşlarını və davamçılarını ittiham etməkdən belə utanmayacaqdı.

Təbii ki, Kəlbəcərin işğalından 22 il sonra bu işğalın günahkarlarının kim olmasından bəhs etməyə lüzum görmürəm. Əlahəzrət fakt ondan ibarətdir ki, kimin günahkar olmasından asılı olmayaraq, 1993-cü ilin 2 aprelində ölkənin strateji nöqtələrindən biri, Qarabağın qala qapısı adlanan Kəlbəcər işğal edildi. Kəlbəcər həm də ermənilərin Qarabağdan kənarda yerləşən Laçından sonra işğal etdikləri ikinci rayon kimi tarixə düşdü.

Kəlbəcər toponimini araşdıran tədqiqatçıların təbirincə desək, Kəlbəcərin qədim türk dillərində mənası "çay üstündə qala" deməkdir. Kəlbəcər Qafqazın ən qədim insan məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq bir tarix deməkdir. Deməli, təkcə sıradan bir rayonumuz işğal edilməyib, həm də bəşəriyyətin beşiklərindən biri sayılan ərazimiz – beşiyimiz oğurlanıb.

Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb. Kəlbəcərdə Zar açıq düşərgəsində aparılan arxeoloji tədqiqatlarda sübut olunub ki, ibtidai insan sürü icmasının ilk əmək alətləri daşdan meydana gəlib. Deməli, bu işğalla həm də "Vətən" kəlməsi ilə birləşəndə "Vətəndaş" sözünü meydana gətirən daşımız işğal edilib.

Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Deməli, türklükdən rəng alan səma rənginin, atəşpərəstliyin al-qırmızı rənginin və İslamın yaşıl rənginin izləri qalıb Kəlbəcərdə. Bir də 511 nəfər şəhidin ruhu, 231 nəfər itkin düşən soydaşımızın nəfəsi və harayı. Və bir zaman Kəlbəcərdən erməni işğalçılarının və havadarlarının vəhşiliyi, "sapı özümüzdən olan baltaların", ən humanist şəkildə ifadə etsəm, səriştəsizliyi nəticəsində Kəlbəcərdən didərgin düşən 53 min 340 nəfərin bir gün yenidən Vətəninə qayıtmaq arzusu... Deyəsən yanlış yazdım axı, kəlbəcərli olduğunu bilib, Kəlbəcərdə anadan olmadığını da bilənləri unutmaq olmaz... 53 min 962 nəfər. Təkcə arzusu yox, həm də gündən-günə artan inamı.



Bu gün gündən-günə qüdrətlənən Azərbaycan dövlətinin inkişafından, tərəqqisindən doğan bu inam, artıq dünyanın ən böyük dövlətlərinin məsələyə – işğal faktına ikili, üçlü, dördlü, beşli standartlarla yanaşmalarından, lap elə Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurasının 3205 saylı iclasında qəbul etdiyi 822 saylı qətnamədən də güclü faktora çevrilməkdədir. Əgər qəbul edilən qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunurdusa, bu inam hətta tarixi Qərbi Azərbaycan torpaqlarında yaşayan soydaşlarımızın öz dədə-baba yurdlarına sahiblənməsini təmin edəcək qədər güclü faktora çevrilməkdədir. Çünki bu inam qüdrətli və milli əsaslara söykənən dövlətçilik prinsiplərindən, inkişaf edən iqtisadiyyatdan, güclənən hərbi sənaye potensialından, Vətəninə və vətəndaşına ən ali dəyər və sərvət kimi yanaşan dövlət idarəçilərinin vətənpərvərliyindən doğur. Deməli, hələ hər şey bitməyib. Uzun zamandan bəri arzuladığımız zəfər günü qarşıdadır, elə Kəlbəcərin işğaldan azad ediləcəyi gün də. Ümummilli lider Heydər Əliyevin sözləri ilə ifadə etsək: ***"Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar".***

**Elnur KƏLBİZADƏ**

## Aprel ayında kənd təsərrüfatı sahəsində hansı işlər görülməlidir?

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi torpaq mülkiyyətçilərinə, həmçinin fermerlərə bitkiçilik və heyvandarlıq sahələrində mövsümlə bağlı aşağıdakı işlərin görülməsini tövsiyə edir.***



***Meyvə və üzüm bağlarında***

Aran bölgələrindəki meyvə bağlarında suvarma aparılmalı, dağlıq bölgələrdə isə budama işləri başa çatdırılmalıdır. Bundan başqa, tezyetişən sortlarda vegetasiya inkişafı müşahidə edilərsə, hava şəraiti nəzərə alınmaqla bar orqanlarının şaxtadan mühafizə edilməsi məqsədilə ağac cərgələri aralarında şaşkalar yandırmaq lazımdır. Çətin yanan bitki qalıqları, küləş və ya yaş odun yandırmaqla tüstüləndirmə aparmaq da məqsədəuyğundur.

Dağlıq ərazilərdə becərilən gec oyanan meyvə ağaclarında sortdəyişmə məqsədilə calaq işləri aprel ayının ilk ongünlüyündə aparılmalıdır.

Bu aydan etibarən üzüm bağlarında tənəklərin üstü açılmalı, quru budama və dərmanlama işləri görülməlidir (1 faizli DNOK və 2 faizli nitrofenlə, yaxud əvəzedicisi ilə). Bundan sonra tənəklərin dibi açılır, şeh köklər kəsilib çıxarılaraq suvarma işi aparılır. Çox keçmədən tənəklərin quru bağlanması işləri görülür, cərgələrin arası şum edilir və şırımlar açılır.

***Əkinçilikdə***

Şumqaldırma və əkin işləri davam etdirilməli, əkilmiş sahələr suvarılmalıdır. Eyni zamanda toxumla əkilən tərəvəzlərin və dənli-paxlalı bitkilərin toxumları əkindən əvvəl dərmanlanmalı, əkin üçün sahələr hazırlanmalıdır.

Toxumluq kartof yumruları dərmanlanaraq əkin işi aparılmalıdır. Tərəvəz (şitillə əkilən) və bostan bitkiləri üçün torpaq hazırlıqları aparılmalı, bostan bitkilərinin əkini keçirilməlidir.

Qarğıdalı əkini üçün sahələr seçilməli, şumaltına gübrələr verilməklə şum qaldırılmalı, toxum dərmanlanaraq əkin işi aparılmalıdır.

Payızlıq taxıl əkini sahələrində suvarmalar aparılmalı, zəmilərdə alaq otlarına qarşı kimyəvi tədbirlər görülməlidir. Bunun üçün 2,4 D amin duzu (hektafermin) herbisindən istifadə olunması məsləhətdir.

***Heyvandarlıqda***

Maldarlıqda yanvar ayında mayalanmış inək və düyələrin boğazlığını müəyyən etmək üçün rektal müayinə aparılmalıdır. Boğaz olmayanlar təkrar mayalanma üçün zoobaytar müayinəsindən keçirilməlidir. Bu ayın əvvəlində yeni bala doğmuş heyvanların məhsuldarlığını artırmaq məqsədilə onların yem payına qidalı maddələrin əlavə olunması davam etdirilməlidir.

Qoyunçuluq təsərrüfatında yun qırxımı işlərinə hazırlıq görülməli, əvvəlcə gümrah heyvanların qırxımına başlanmalıdır.

Quşçuluq təsərrüfatında quş damlarının temperaturunu müəyyənləşdirmək və quşlara veriləcək yemin tərkibini düzgün nizamlamaq məqsədilə təsərrüfat üçün quşların götürülməsi davam etdirilməlidir. Qeyd edək ki, təsərrüfata götürüləcək cücələrin yaş həddi 6-10 gündən artıq olmamalıdır.

Arı ailələri çiçəklərin bol olduğu müşahidə edilən ərazilərə köçürülməli, gücü zəif, anasız arı ailələri ana arılı zəif ailə ilə birləşdirilərək normal gücə gətirilməlidir. Bundan başqa, yem ehtiyatı az olan ailələrə ballı və güləmli ramkalar verilməli və ya belə arı ailələri 1:1 nisbətində vitaminli şəkər şərbəti ilə mütəmadi yemlənməlidir.

Heyvandarlıq təsərrüfatında bu ayda sanitar-gigiyena qaydalarına əməl edilməklə yanaşı, epizootik plana uyğun baytarlıq tədbirlərinin görülməsinə xüsusilə ciddi diqqət yetirilməlidir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində ixtisaslı kadrlar hazırlanır

***Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində peşəkar mütəxəssislərin hazırlanmasına ciddi diqqət yetirilir. 2012-ci ildə məktəb üçün hərtərəfli tədris şəraitinə və maddi-texniki təchizata malik olan kompleksin istifadəyə verilməsi bu istiqamətdə görülən tədbirlərin miqyasını daha da genişləndirmişdir.***

Bu gün Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanması gələcəkdə baş verə biləcək yol-nəqliyyat hadisələrinin ilkin mərhələdə qarşısının alınması və avtonəqliyyat vasitələrindən düzgün istifadə baxımından əhəmiyyətlidir. Hazırda məktəbdə yürüyüş təlimlərinin keçilməsi üçün 8 avtomobil, minik və yük avtomobillərinin bazasında yığılmış 2 avtotəlim maşını vardır. Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçilir. Təlim kursu başa çatdıqdan sonra müdavimlər bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün imtahan verirlər.

2014-cü ilin birinci rübündə məktəb öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmuşdur. Bu müddətdə məktəbdə 26 qrup açılmışdır ki, onlardan da 2-si qadın qrupu olmuşdur. Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində çalışan sürücülərin peşəkarlıq səviyyələrini yüksəltmək məqsədilə yeni qruplar yaradılmış və kurslar təşkil olunmuşdur. İlin birinci rübündə həmin qruplarda 810 sürücü kurs keçmişdir. Ötən 3 ayda məktəbdə təhsili başa vuran 808 müdavimə şəhadətnamə verilmişdir. Həmin müdavimlərdən 60-ı qadınlar, 180-i isə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən göndərilən gənclər olmuşdur.

Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi peşəkar sürücülərin və ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyətini davam etdirir.

**"Şərq qapısı"**

## Maarifləndirici tədbir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ümumtəhsil məktəblərində yanğın təhlükəsizliyi ilə bağlı müəyyən olunmuş tələblərə əməl olunması ilə əlaqədar Ordubad rayonunun Aza kənd tam orta məktəbində maarifləndirici tədbir keçirib.*

Giriş sözü ilə çıxış edən məktəbin direktoru Təvəkkül Məmmədov tədbirin mahiyyəti barədə məlumat verib. Yığıncaqda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin rəisi, daxili xidmət kapitanı Mirtaleh Seyidovun "Təhsil müəssisələrində yanğın təhlükəsizliyi ilə bağlı müəyyən olunmuş tələblərə riayət olunması və yanğın hadisəsi zamanı davranış qaydaları", həmin bölmənin baş zabiti, daxili xidmət kapitanı Azər Qasımovun "Qaz və elektrik cihazlarının istismarı zamanı yanğın təhlükəsizliyi qaydaları, dəm qazının yaranma səbəbləri və yaşayış sahələrində baş verən yanğın hadisələrinin səbəbləri", nazirliyin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Dövlət yanğın nəzarəti bölməsinin rəisi, daxili xidmət baş leytenantı Hasil Məmmədovun "Yaşayış sahələrində baş verən yanğın hadisələrinin səbəbləri və əhalinin yanğın təhlükəsizliyi sahəsində maarifləndirilməsi", Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin əhalinin maarifləndirilməsi və metodik yardımın təşkili üzrə məsləhətçisi Əbülfəz Qafarovun "Fövqəladə hadisələr, onun xüsusiyyətləri və fövqəladə hadisələr zamanı davranış qaydaları" mövzularında məruzələri dinlənilib.

Sonda iştirakçılara "Yaşayış evlərində və mənzillərdə yanğın təhlükəsizliyi qaydaları" adlı yaddaş kitabçaları paylanılıb.

**Türkan HÜSEYNLİ**


### *İşaxtaran vətəndaşların nəzərinə!*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində elektrik montyoru peşəsi üzrə kurs keçməyə dəvət edir. Tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il aprelin 10-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış*

***Əlaqə telefonu: 545-32-33***


### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının kollektivi iş yoldaşları Faiq Əsgərova, xalası **BÜLBÜLÜN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Sevil İbrahimova və mərkəzin kollektivi iş yoldaşları Zülfiyyə Mərdanovaya, bacısı **İLKANƏNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 300**